UOT 371.3

İRADƏ HÜSEYNOVA
Bakı Dövlət Universitetinin
Qafqaz xalqları tarixi kafedrasının müdiri,
tarix elmləri doktoru, professor
iradahuseynova@bsu.edu.az

"QAFQAZ MÜASİR ÇAĞIRIŞLAR VƏ YENİ TƏHDİDLƏR ŞƏRAİTİNDƏ" FƏNİNİN TƏDRİSİNƏ DAİR

DOI: https://doi.org/10.36719/2708-065X/112/238-246

Qafqaz regionu tarixən böyük dövlətlərin geosiyasi maraqlarının toqquşduğu, enerji və nəqliyyat xətləri, etnik və dini müxtəliflik, eləcə də təhlükəsizlik problemlərinin cəmləşdiyi strateji məkandır. Məqalədə XXI əsrin yeni reallıqları fonunda Qafqazda regional münaqişələr, geosiyasi rəqabət, enerji və ekoloji təhlükəsizlik, kibertəhlükələr, informasiya müharibələri, insan alveri və terrorizm kimi çağırışlar sistemli yanaşma, tarixi-analitik, müqayisəli və geosiyasi metodlar əsasında təhlil olunur. Xüsusilə 2020-ci il Vətən müharibəsi və 2023-cü il antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyünün bərpası, Şuşa Bəyannaməsi, həmçinin Ermənistanla sülh sazişinin paraflanması Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının formalaşmasının əsas mərhələləri kimi qiymətləndirilir.

Məqalədə göstərilir ki, Qafqazda sabitliyin təmin olunması yalnız hərbi-siyasi amillərlə məhdudlaşmır; bioetika, ekoloji təhlükəsizlik, sərhəd nəzarəti, insan alveri ilə mübarizə, eləcə də kibertəhlükəsizlik regional təhlükəsizliyin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Azərbaycanın multikulturalizm modeli, balanslı xarici siyasəti və "Böyük Qayıdış" proqramı fonunda sosial-iqtisadi inkişaf, tolerantlıq və hüquq bərabərliyi separatizm meyillərinin qarşısını alan əsas dayaqlar kimi təqdim edilir. Nəticə etibarilə, Qafqazın gələcəyi əməkdaşlıq və qarşılıqlı etimad, çoxtərəfli diplomatik platformalar, həmçinin təhsil və elmin gənclərdə analitik düşüncə, milli-mənəvi dəyərlər və sülh mədəniyyətinin formalaşdırılmasındakı rolundan birbaşa asılı hesab olunur.

Açar sözlər: Qafqaz regionu, geosiyasi maraqlar, regional təhlükəsizlik, münaqişələr, postmünaqişə dövrü, multikulturalizm.

Giriş. Qafqaz regionu tarixən geosiyasi, iqtisadi və mədəni baxımdan böyük əhəmiyyətə malik olmuş, müxtəlif sivilizasiyaların və maraq dairələrinin kəsişdiyi strateji bir məkan kimi formalaşmışdır. Müasir dövrdə qlobal və regional səviyyədə baş verən siyasi proseslər, enerji və nəqliyyat layihələrinin genişlənməsi, eləcə də böyük dövlətlərin maraqlarının toqquşmaları bu gün də öz aktuallığını saxlamaqdadır.

XXI əsrin yeni reallıqları - informasiya müharibələri, hibrid təhdidlər, ekoloji və enerji təhlükəsizliyi problemləri, etnik və dini zəmində gərginliklər Qafqazda sabitliyin təmin edilməsini strateji prioritetə çevirməkdədir. Belə şəraitdə region dövlətlərinin milli maraqlarının qorunması, qarşılıqlı əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və yeni təhlükəsizlik arxitekturasının formalaşdırılması zərurəti meydana gəlmişdir.

Bu baxımdan, Bakı Dövlət Universitetində Tarix fakültəsinin Qafqaz xalqları tarixi kafedrasında tədris olunan bu fənn tədris və metodoloji aspektdən böyük əhəmiyyət kəsb edir. Həmçinin bu fənnin tədrisi, elmi təhlili həm nəzəri, həm də praktik baxımdan böyük aktuallığa malikdir.

Tədqiqatın əsas məqsədi Qafqaz regionunda müasir dövrdə yaranan siyasi, iqtisadi və təhlükəsizlik çağırışlarını, habelə yeni təhdidlərin xarakterini müəyyənləşdirmək, onların regional sabitlik və inkişaf proseslərinə təsirini elmi əsaslarla təhlil etməkdən ibarətdir.

Bu məqsədlə araşdırmada regiondakı dövlətlərarası münasibətlərin dinamikası, beynəlxalq aktorların rolu, münaqişə risklərinin dəyişən formaları və təhlükəsizlik mühitinin transformasiyası nəzərdən keçirilir. Nəticədə, Qafqazda dayanıqlı təhlükəsizlik və əməkdaşlıq modelinin formalaşdırılması üçün elmi əsaslandırılmış təkliflərin irəli sürülməsi nəzərdə tutulur.

Eləcə də Qafqaz regionunun müasir çağırışlar və yeni təhdidlər şəraitində fənninin tədris prosesində tədqiqi kompleks və çoxsahəli yanaşma tələb edir. Bu baxımdan, mövzunun metodoloji əsaslarını müəyyənləşdirmək tədqiqatın elmi dəyərini və nəticələrinin obyektivliyini təmin edən əsas amillərdəndir.

Tədris zamanı Qafqaz regionunun müasir geosiyasi reallıqlarını izah etmək, tələbələrdə analitik düşüncə və tənqidi yanaşma bacarıqlarını inkişaf etdirmək, yeni təhdidlərin (kibertəhlükəsizlik, informasiya manipulyasiyası, hibrid müharibə) mahiyyətini dərk etdirmək, regiondakı proseslərə dair proqnozlar verə bilmək bacarığı formalaşdırmaq mühüm məsələlərdən biridir.

Müasir çağırışlar dedikdə regional münaqişələr və sülh prosesi, geosiyasi rəqabət (Rusiya, Türkiyə, İran, Qərb dövlətləri), enerji təhlükəsizliyi və nəqliyyat dəhlizləri, etnokonfessional münasibətlər və miqrasiya, ekoloji və informasiya təhlükəsizliyi problemləri nəzərdə tutulur.

Tədqiqatın metodoloji əsası sistemli yanaşma, tarixi-analitik, müqayisəli və geopolitik təhlil prinsiplərinə əsaslanır. Bu metodlar regionda baş verən siyasi, iqtisadi, təhlükəsizlik və sosial proseslərin qarşılıqlı asılılığını və dinamik inkişaf tendensiyalarını anlamağa imkan verir. Qafqazı ayrıca dövlətlər toplusu kimi deyil, vahid geosiyasi və mədəni sistem kimi nəzərdən keçirmək üçün tədrisdə sistemli yanaşma metodunun tətbiqi vacibdir. Sistemli yanaşma regionda baş verən prosesləri – etnik, dini, siyasi və iqtisadi amillərin qarşılıqlı təsiri kontekstində – bütöv şəkildə öyrənməyə imkan verir. Regionda formalaşmış müasir çağırışların köklərini aşkar etmək üçün tarixi-analitik metoddan istifadə etməklə postsovet transformasiyaları və regional münaqişələri təhlil etmək mümkündür. Regiondakı dövlətlərin – Azərbaycan, Gürcüstan, Ermənistan, eləcə də Şimali Qafqaz subyektlərinin – siyasi və təhlükəsizlik strategiyalarının müqayisəli öyrənilməsi oxşar və fərqli xüsusiyyətlərin müəyyən edilməsinə şərait yaradır.

Bu mövzunun tədrisində ən səmərəli metodlar interaktiv və tədqiqat yönümlü üsullardır. Belə ki, Qarabağ münaqişəsi, Gürcüstan-Rusiya münasibətləri, 2020 və 2023-cü il hadisələri kimi konkret nümunələr üzərində təhlil aparmaqla tədris prosesini daha da təkmilləşdirmək olar.

Digər bir nümunə "Qafqazda sülh təşəbbüsləri", "Yeni nəqliyyat dəhlizləri və təhlükəsizlik" kimi mini-tədqiqat layihələri hazırlamaqla tələbələri dərs müzakirəsində tədris prosesinin və tədqiqat layihələrinin tələblərinə cəlb etmək, onların dünyagörüşünə, analitik düşüncə tərzinə müsbət təsir göstərməkdir [12].

Bu tədris metodikası tələbələrə Qafqaz regionunun reallıqlarını yalnız nəzəri deyil, həm də praktik müstəvidə dərk etməyə imkan verir. Müasir çağırışların çoxşaxəli olması səbəbindən tədris prosesində fənlərarası yanaşma (tarix, siyasət, iqtisadiyyat, hüquq) tədrisin səmərəliliyinə xidmət edir.

Tələbələrdə Qafqaz regionunun müasir geosiyasi vəziyyətini, yeni təhdidləri və təhlükəsizlik çağırışlarını təhlil etmək bacarığını formalaşdırmaq üçün regionun tarixi və siyasi kontekstini anlamaq, müasir geosiyasi qüvvələr balansını təhlil etmək, yeni təhlükələr (kibertəhlükəsizlik, informasiya müharibəsi, hibrid təhdidlər) barədə biliklər aşılamaq lazımdır.

Qloballaşma dövründə beynəlxalq münasibətlərin mürəkkəb xarakter alması regional münaqişələrin və separatizm meyillərinin aktuallığını daha da artması şəraitində Qafqazda münaqişələr mövzusunun tədrisi vacib məsələlərdəndir. Regionda baş verən münaqişələr yalnız müəyyən regionun daxili sabitliyini deyil, həm də beynəlxalq təhlükəsizlik sistemini ciddi şəkildə sarsıdır. Etnik, dini, siyasi və iqtisadi zəmində münaqişələr yeni geosiyasi reallıqlar yaradıb, regional inteqrasiya proseslərini çətinləşdirib.

Uğurlu siyasəti nəticəsində Azərbaycan dövləti qloballaşan dünyada münaqişələr və separatizm meyillərinin qarşısını alır. Prezident İlham Əliyev yalnız hərbi və siyasi tədbirlərlə deyil, eyni zamanda sosial-iqtisadi inkişaf, etnik tolerantlıq, hüquq bərabərliyi və mədəni inteqrasiya siyasəti ilə bu cür münaqişələrin regional təsirini aradan qaldırmağa nail olmuşdur. Müzəffər Ali Baş Komandanın sərkərdəlik məharəti və Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzmi və rəşadəti, hərbi-texniki və mənəvi-psixoloji hazırlığı 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabrında bir günlük antiterror əməliyyatında tarixi qələbələri əldə etməyə imkan verdi. Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu, dövlətimizin ərazi bütövlüyü və suverenliyi, tarixi ədalət bərpa olundu. 2020-ci il noyabrın 10-da imzalanmış Birgə bəyanata əsasən, Azərbaycanın Kəlbəcər, Ağdam və Laçın rayonları bircə güllə belə, atılmadan azad edildi. Antiterror əməliyyatından sonra

düşmən məcbur oldu ki, Qazax rayonunun 1990-cı illərin əvvəllərində işğal etdiyi 4 kəndi Azərbaycana qaytarsın.

2021-ci il iyunun 15-də "Şuşa Bəyannaməsi" adlanan mühüm sənəd Azərbaycan və Türkiyə Respublikaları arasında ikitərəfli münasibətlərin ən yüksək həddə çatdırılacağını ehtiva etdi. Belə ki, Bəyannamədə göstərilmişdir ki, Türkiyə və Azərbaycana hər hansı birinə üçüncü ölkə tərəfindən təhlükə olacağı təqdirdə bu ölkələr bir-birini qorumaq üçün birgə addımlar atacaqlar.

Qeyd edək ki, Şuşa Bəyannaməsi tarixi Qars müqaviləsindən düz 100 il sonra imzalanmışdır. 1921-ci il oktyabrın 13-də imzalanan bu müqavilə bəyan edirdi ki, Naxçıvanın təhlükəsizliyinin qarantı Türkiyədir. Şuşa Bəyannaməsi isə Qarabağın qarantının Türkiyə olduğunu təsbit etdi. Bu Bəyannamə Azərbaycana və Türkiyəyə qarşı ikili standartlar mövqeyindən yanaşan, regionda siyasi maraq və nüfuz uğrunda mübarizə aparan dövlətlərə dərin mənalı bir ismarıcdır. Bəyannamədə bir çox önəmli məsələlər - beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti və demək olar ki, bütün sahələr əhatə olunub. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilmişdir [18].

Azərbaycan Respublikasının nüfuzu dünya müstəvisində günü-gündən artmaqdadır. 8 avqust 2025-ci ildə ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Azərbaycan və Ermənistan arasında Sülh sazişinin paraflanması həyata keçirildi. Bu bütövlükdə Qafqaz bölgəsində sülhün, sabitliyin, əməkdaşlığın, gələcək inkişafının etibarlı və möhkəm təminatıdır [4].

Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda dini və etnik həmrəylik siyasəti uğurla həyata keçirilir. Müxtəlif xalqlar və dinlərin nümayəndələri ölkədə sülh və qarşılıqlı hörmət şəraitində yaşayır. Bu siyasət separatizmə qarşı ən mühüm sosial dayaqlardan biridir, çünki vətəndaşlar milli və dini mənsubiyyətindən asılı olmayaraq özlərini dövlətin bərabər üzvü kimi hiss edirlər. Azərbaycanın bu modeli beynəlxalq miqyasda da "Azərbaycan multikulturalizmi" kimi tanınır. Dövlət başçısının: "*Biz Azərbaycanda multikulturalizmi bir həyat tərzi olaraq qoruyur və dəstəkləyirik. Azərbaycan dünyada tolerantlığın, müxtəlif dini və etnik qrupların nümayəndələrinin dinc birgəyaşayışının nümunəsi sayılır*" fikirləri dövlət siyasətində multikulturalizmin yüksək səviyyədə təbliğinin göstəricisidir.

Azərbaycanın balanslı və müstəqil xarici siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəni regionda sabitlik adasına çevirib. Ermənistanla normallaşma prosesi məhz Azərbaycanın diktə etdiyi şərtlərlə aparılır. Qoşulmama Hərəkatında, BMT-də, Avropa Şurasında Azərbaycanın mövqeləri separatizmə qarşı müstəqillik və suverenlik prinsipinin müdafiəsi ilə səslənir.

Dövlət başçısının rəhbərliyi ilə azad edilmiş ərazilərdə "Böyük Qayıdış" proqramı həyata keçirilir. Yeni şəhərlər, kəndlər, yollar, hava limanları inşa olunur. Bu siyasət həm iqtisadi inkişafı təmin edir, həm də separatizmə zəmin yaradan sosial narazılıqları aradan qaldırır. Əhalinin dövlətə bağlılığını gücləndirən sosial ədalət və rifah siyasəti regionda sabitliyi möhkəmləndirir.

"Böyük Qayıdış" proqramı haqqında danışarkən Azərbaycan Respublikası Prezidentinin AMEA-nın yaranmasının 80 illik yubileyindəki çıxışına toxunmaq istəyərdim. O, dərin məzmunlu məruzəsində Azərbaycan tarixinin tədqiq və təbliğ edilməsinin zəruriliyini xüsusi olaraq qeyd etmişdir: "Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər... azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır... Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda, Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır. Həm elmi əsərlər, sərgilər, təqdimatlar, tarixi xəritələrin dərc edilməsi. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib. Həmin o çar Rusiyası ki, vaxtilə ermənilər İrandan və Şərqi Anadoludan gətirərək bizim Qarabağ torpağında yerləşdirib ki, burada etnik və dini tərkib dəyişsin. Yəni, bu xəritələr tamamilə tarixi həqiqətə əsaslanan xəritələrdir. Ona görə biz bunu təbliğ etməliyik, tədqiq etməliyik. Daha çox elmi əsərlər, daha çox hətta kiçikhəcmli bukletlər hazırlanmalıdır ki, həm Azərbay-

can gəncləri öz tarixini yaxından bilsinlər, həm dünya ictimaiyyəti bilsin və eyni zamanda, indiki Ermənistana bizim qayıdışımız da tamamilə məntiqli və ədalətli səslənsin. Ona görə Azərbaycan tarixi ilə bağlı bax, bu istiqamətdə əlbəttə ki, əlavə addımlara ehtiyac var. Bütövlükdə müstəqil Azərbaycan dövlətinin tarixi ilə bağlı sanballı elmi əsərlərə də böyük ehtiyac var. Artıq 30 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq və Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var" [3].

Qafqazda təhlükəsizliyin təmin edilməsi yalnız dövlətlərin daxili sabitliyi ilə məhdudlaşmır. Transmilli cinayətkarlıq, terrorizm və qeyri-leqal fəaliyyətlər, xüsusilə də insan alveri dövlətlərin sərhəd təhlükəsizliyinə ciddi təhdid yaradır. İnsan alveri təkcə sosial və humanitar problem deyil, həm də iqtisadi, siyasi və təhlükəsizlik aspektlərində beynəlxalq sabitliyi pozan amildir. Bu baxımdan, terrorizm və insan alveri fenomenləri arasında əlaqələrin öyrənilməsi müasir təhlükəsizlik elminin mühüm istiqamətlərindən biridir.

Bölgədə bu sahənin inkişafı qlobal biotexnoloji yeniliklərin, o cümlədən, regionun spesifik sosial-mədəni xüsusiyyətlərinin təsiri altında formalaşır. Müasir çağırışlar fonunda bioetikanın rolu yalnız tibbi praktikalarda məhdudlaşmır, həm də hüquqi, dini və siyasi diskurslara sirayət edir.

Regionda bioetikanın formalaşması və institusional əsaslarının öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə biotexnologiyaların, gen mühəndisliyinin, tibbi müdaxilələrin və ekoloji dəyişikliklərin sürətli inkişafı insan həyatının etik sərhədlərini yenidən müəyyənləşdirir. Bu proseslər xüsusilə Qafqazda sosial, siyasi və dini müxtəlifliklərin kəsişdiyi bir məkanda bioetikanın aktuallığını daha da artırır. Burada bioetika anlayışı 1990-cı illərdən etibarən post-sovet məkanında tibbi etik komitələrin yaradılması, universitet proqramlarının genişlənməsi və beynəlxalq təşkilatların (məsələn, UNESCO, WHO) təşəbbüsləri ilə inkişaf etməyə başlamışdır. Azərbaycanda Bioetika Komissiyasının yaradılması, Gürcüstanda tibbi etika üzrə qanunvericilik islahatları bu prosesin mühüm mərhələlərini təşkil edir [30].

COVID-19 pandemiyası bioetikanın praktiki əhəmiyyətini açıq şəkildə göstərdi. Qafqaz ölkələrində vaksin paylanması, ictimai sağlamlıqla fərdi azadlıqlar arasında tarazlıq, tibbi resursların ədalətli bölüşdürülməsi kimi suallar bioetik prinsiplərin yenidən nəzərdən keçirilməsini zəruri etdi.

XXI əsrin əvvəli dünya tibb elminin tarixinə koronovirusların ekoloji xüsusiyyətlərinin və epidemik potensialının yenidən nəzərdən keçirilməsi dövrü kimi daxil oldu. Koronovirus epidemiyası bəşəriyyət tarixində potensial nəzarətə alınmış ilk pandemiyadır. Hazırda dünyada yaranmış epidemik vəziyyət Yer kürəsinin hər bir regionu üçün ciddi bir sınaqdır, belə ki koronovirus infeksiyası hər gün cins, yaş və etnik mənsubiyyətindən asılı olmayaraq, minlərlə insanın həyatına təhlükə yaratmaqda davam edir. Koronovirusların yeni növü olan COVİD-19 qlobal pandemiyaya səbəb olmaqla dünya elminə, bəşəriyyətə, müasir dövrə bir sıra problemlər, suallar, müzakirələr və yeniliklər gətirdi [2].

Müasir zamanımızın çağırışlarından biri olan regional təhlükəsizliyin və bölgənin ekoloji bioetikasının tədqiq olunması olduqca vacibdir. Qafqazda ekoloji problemlər su resurslarının azalması, sənaye tullantıları və iqlim dəyişikliyi bioetikanın təkcə tibbi deyil, həm də ekoloji ölçülərini gündəmə gətirir. Ekoloji bioetika burada insan və təbiət münasibətlərinin etik məsuliyyətini vurğulayır.

Qafqazda sərhəd təhlükəsizliyinin zəifləməsi və insan alverinin artması kimi təhlükələr qalmaqdadır. Sərhədlərin zəif idarə olunması insan alverinin genişlənməsi üçün münbit şərait yaradır. Qeyri-leqal miqrasiya axınları, münaqişə zonalarından köçlər və humanitar böhranlar sərhəd nəzarət mexanizmlərini zəiflədir. Bu zəifliklərdən istifadə edən cinayətkar qruplar insan alverini asanlıqla həyata keçirə bilirlər. Xüsusilə, müharibə və silahlı qarşıdurma bölgələrində qadınlar və uşaqlar daha çox risk altındadır. Bu baxımdan, sərhəd təhlükəsizliyinin gücləndirilməsi təkcə dövlət suverenliyinin qorunması üçün deyil, həm də insan alveri ilə mübarizədə əsas strateji element hesab olunur.

İnsan alveri, xüsusilə də əmək və cinsi istismar məqsədli formaları, terror təşkilatlarının maliyyə mənbələri arasında önəmli yer tutur. "İŞİD", "Boko Haram" və digər radikal qruplar 2010-cu illərdə qadın və uşaqların alveri yolu ilə milyonlarla dollar gəlir əldə etmişlər. Bu hadisələr göstərir ki, insan alveri yalnız cinayətkar fəaliyyət deyil, həm də terrorizmin davamlılığını təmin edən iqtisadi mexanizmdir [24].

İnsan alveri ilə mübarizə istiqamətində bir sıra beynəlxalq sənədlər qəbul edilmişdir. BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı konvensiyası"na əlavə "İnsan alverinin qarşısının alınması, onunla mübarizə və qurbanların müdafiəsi haqqında Protokol" (2000) bu sahədə əsas hüquqi baza hesab olunur. Regional səviyyədə Avropa Şurası, ATƏT və MDB çərçivəsində də müvafiq əməkdaşlıq mexanizmləri mövcuddur. Azərbaycan Respublikasında isə "İnsan alverinə qarşı mübarizə haqqında Qanun" (2005) və milli fəaliyyət proqramları bu istiqamətdə mühüm addımlardır.

Qafqazda beynəlxalq və regional dövlətlərin geosiyasi rəqabət məsələsi bu günün aktuallıq kəsb edən məsələlərindəndir. Türkiyə Qafqaz siyasətində "Orta Dəhliz" konsepsiyası və Türk Dövlətləri Təşkilatı vasitəsilə fəal rol oynayır. Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Qars kimi layihələr onun regional nüfuzunu artırmışdır. Türkiyə üçün Qafqaz həm enerji təhlükəsizliyi, həm də türk dünyasının inteqrasiyası baxımından strateji əhəmiyyət daşıyır.

İran Cənubi Qafqazda öz geosiyasi maraqlarını qorumağa çalışır. O, Qərb və Türkiyənin artan təsirindən narahat olaraq alternativ nəqliyyat yolları (Şimal–Cənub dəhlizi) üzərində dayanır. İran üçün region sərhəd təhlükəsizliyi və iqtisadi əlaqələrin genişlənməsi baxımından vacibdir.

Qərb ölkələri də həm öz iqtisadi-siyasi, həm də Avrasiyada Rusiya və İran təsirini balanslaşdırmaq üçün maraqlarını Qafqazda cəmləşdiriblər. "Cənub Qaz Dəhlizi" və "Şərq Tərəfdaşlığı" proqramları bu siyasətin əsas vasitələrindəndir. Avropa üçün Azərbaycan qazı enerji diversifikasiyasının mühüm mənbəyidir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın son dərəcə əlverişli coğrafi mövqedə yerləşməsi keçmişdən müxtəlif mədəniyyətləri, sivilizasiyaları və xalqları birləşdirən nəqliyyat magistrallarının ölkəmizin ərazisindən keçməsini təmin etmişdir. Avropa ölkələrini Yaxın və Orta Şərqdə birləşdirən başlıca nəqliyyat dəhlizi olan Böyük İpək Yolu qədim zamanlardan indiyə qədər Azərbaycanı logistik, kommunikasiya mərkəzinə çevirmişdir [29].

Azərbaycanın neft-qaz ehtiyatları regionun iqtisadi əhəmiyyətini yüksəldir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və Trans-Adriatik qaz kəməri kimi layihələr Qafqazı Avropanın enerji təhlükəsizliyində əsas amilə çevirib.

Qafqaz üzərindən keçən "Orta Dəhliz" Çin–Avropa ticarət əlaqələrinin mühüm hissəsinə çevrilir. Zəngəzur dəhlizi və Bakı–Tbilisi–Qars dəmiryolu regionun geoiqtisadi çəkisini artırır. Bu infrastruktur layihələri regional rəqabəti daha da intensivləşdirir.

Qarabağ münaqişəsinin son mərhələsi (2020 və 2023-cü illər) regionda yeni reallıq formalaşdırdı. Azərbaycanın ərazi bütövlüyünün bərpası Cənubi Qafqazda güc balansını dəyişdi. Türkiyə və Rusiyanın eyni zamanda aktivləşməsi Qafqazı çoxqütblü təsir zonasına çevirdi. Ermənistan–Azərbaycan sülh prosesi regionun gələcək sabitliyinin əsas şərtidir.

Rusiya-Ukrayna müharibəsi fonunda Qafqazda geosiyasi tarazlıq yenidən formalaşır. Rusiya, Türkiyə və İranın regional maraqları toqquşur, Qərbin artan diplomatik fəallığı isə güc balansını dəyişir. Ermənistan–Azərbaycan münasibətlərində post-müharibə dövrü yeni təhlükəsizlik reallıqları ilə müşayiət olunur. Bu şəraitdə kollektiv təhlükəsizlik mexanizmlərinin effektivliyi sual altına düşür.

Xəzər hövzəsinin enerji resursları və Cənub Qaz Dəhlizi kimi layihələr Qafqazın geoiqtisadi rolunu artırır. Lakin enerji infrastrukturlarının kibertəhlükələrə və hərbi risklərə qarşı zəifliyi regionun strateji sabitliyinə birbaşa təsir göstərir.

İqlim dəyişikliyi, su resurslarının azalması və transsərhəd çaylardan istifadədə yaranan gərginliklər ekoloji təhlükəsizliyə yeni təhdidlər yaradır. Eyni zamanda, miqrasiya, urbanizasiya və sosial bərabərsizliklər daxili sabitlik üçün risk amillərinə çevrilməkdədir.

Regionda təhlükəsizlik arxitekturasının formalaşması beynəlxalq güclərin – xüsusilə ABŞ, Avropa İttifaqı, Rusiya, Türkiyə və Çinin maraqları ilə sıx bağlıdır. "3+3" formatı kimi platformalar dialoq üçün potensial yaratsa da, dərin etimad böhranı və sanksiya siyasəti bu təşəbbüslərin effektivliyini məhdudlaşdırır.

Burada kiberməkanda aparılan fəaliyyətlər yalnız texnoloji deyil, həm də siyasi məqsədlər daşıyır. Regionda yerləşən enerji infrastrukturları, nəqliyyat şəbəkələri və dövlət informasiya sistemləri mütəmadi olaraq kiberhücumların hədəfinə çevrilir. Məsələn, 2008-ci il Rusiya-Gürcüstan müharibəsi zamanı baş verən kiberhücumlar informasiya müharibəsinin ilk genişmiqyaslı nümunələrindən biri

kimi tarixə düşdü. Bu hadisə göstərdi ki, hərbi əməliyyatlarla paralel aparılan kiberhücumlar real döyüş meydanında strateji üstünlük qazana bilər.

Region ölkələri kibertəhlükəsizlik məsələsini milli təhlükəsizlik siyasətlərinin əsas istiqamətlərindən biri kimi qəbul etmişlər.

- **Azərbaycan** 2017-ci ildə "Kibertəhlükəsizlik Strategiyası"nı qəbul etmiş, dövlət orqanlarında informasiya sistemlərinin müdafiəsini gücləndirmək və kritik infrastrukturun qorunmasını təmin etmək üçün kibertəhlükələrə qarşı cavab mexanizmini yaratmışdır [17].
- **Gürcüstan** NATO və Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində kibertəhlükəsizlik mərkəzləri yaradaraq regional təcrübə mübadiləsini genişləndirmişdir.
- **Ermənistan** isə əsasən daxili sistemlərinin müdafiəsinə fokuslanmış, lakin resurs və koordinasiya baxımından məhdud imkanlara malikdir [13].

Bu strategiyalar arasında əsas fərq Azərbaycan və Gürcüstanın beynəlxalq əməkdaşlıq və texnoloji inteqrasiyaya daha açıq yanaşmalarıdır [10].

Qafqazda informasiya müharibəsi yalnız texniki kiberhücumlarla məhdudlaşmır. Sosial media, onlayn platformalar və saxta xəbər kampaniyaları vasitəsilə ictimai rəyin formalaşdırılması, siyasi proseslərə təsir göstərilməsi kimi hibrid metodlar geniş tətbiq olunur.

Qafqaz regionu, o cümlədən Azərbaycan, iqlim dəyişikliyinə həssas bölgələrdən biridir. Su ehtiyatlarının azalması, Xəzər dənizinin səviyyə dəyişmələri, kənd təsərrüfatı məhsuldarlığının enməsi və torpaq deqradasiyası kimi problemlər müşahidə olunur. Bu, həm ekoloji, həm də sosial sabitliyə mənfi təsir göstərir. İqlim dəyişikliyinin mənfi təsirlərini azaltmaq üçün aşağıdakı tədbirlər vacibdir:

- Bərpa olunan enerji mənbələrinin tətbiqi;
- Meşələrin bərpası və torpaq resurslarının mühafizəsi;
- Su ehtiyatlarının səmərəli idarə olunması;
- Şəhər infrastrukturunun iqlim dayanıqlılığına uyğunlaşdırılması;
- Elmi tədqiqatların və ekoloji təhsilin gücləndirilməsi.

Yuxarıda göstərildiyi kimi Qafqaz olduqca rəngarəng, tarixən böyük dövlətlərin marağında olan, geosiyasi və strateji əhəmiyyətə malik olan bir regiondur. Müasir dövrdə həm qlobal, həm də regional güclərin iqtisadi, siyasi maraqlarının toqquşduğu, enerji resursları, nəqliyyat-kommunikasiya xətləri və təhlükəsizlik məsələləri baxımından da xüsusi diqqət mərkəzində olan bir bölgədir.

Aparılmış təhlillər təsdiq edir ki, Qafqazda sabitliyin qorunması, inkişafın təmin olunması üçün əsas çağırışlar, siyasi ziddiyyətlər, etnik və dini gərginliklər, xarici təsir mərkəzlərinin müdaxiləsi, həmçinin yeni texnoloji və informasiya təhdidləri, iqlim dəyişiklikləri, miqrasiya axınları və enerji təhlükəsizliyi kimi amillər regionda yeni risklər yaradır [31].

Azərbaycan, Gürcüstan və Ermənistanın regional siyasətdəki mövqeləri, o cümlədən Rusiya, Türkiyə, İran və Qərb dövlətlərinin maraqları Qafqazın gələcək inkişaf istiqamətlərini müəyyən edən əsas faktorlar sırasındadır. Bu şəraitdə əməkdaşlıq, qarşılıqlı etimadın möhkəmləndirilməsi və çoxtərəfli diplomatik təşəbbüslərin genişləndirilməsi regionun sabitliyi üçün mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda regionun sosial-iqtisadi inteqrasiyası, nəqliyyat-kommunikasiya layihələrinin genişlənməsi, beynəlxalq təşkilatlarla əməkdaşlıq imkanları Qafqazın sülh və sabitlik məkanı kimi inkişafı üçün mühüm potensial yaradır. Buna görə də, Qafqazda müasir çağırışlara qarşı effektiv cavab yalnız siyasi iradə, qarşılıqlı etimad və inklüziv təhlükəsizlik yanaşması əsasında mümkündür.

Nəticə etibarilə, Qafqazın gələcəyi onun xalqlarının birgə sülh və təhlükəsizlik naminə atacağı addımlardan, eləcə də beynəlxalq ictimaiyyətin bu proseslərə ədalətli və balanslı yanaşmasından asılı olacaqdır. Müasir çağırışlara adekvat cavab vermək, yeni təhdidləri vaxtında müəyyənləşdirmək və onlara qarşı dayanıqlı mexanizmlər formalaşdırmaq regionun davamlı inkişafının əsas təminatıdır.

Qafqazın gələcəyi təkcə siyasi və iqtisadi sabitlikdən deyil, həm də ictimai şüurun, düşüncənin yenilənməsindən asılıdır. Müasir çağırışlar fonunda regionda sülh, əməkdaşlıq və humanist dəyərlər üzərində qurulan yeni dünyagörüş nizamının gücləndirilməsi vacibdir. Bu, yalnız regional sabitliyi deyil, həm də ümumbəşəri inkişafı təmin edən əsas istiqamətlərdən biridir.

Təhsilin, elmin inkişafı cəmiyyətin dəyişən ehtiyaclarına cavab verməli, dövlətin qüdrətlənməsi üçün yüksək intelektə malik olan, Vətən təəssübkeşliyini düşünən, milli məfkurə, ümumbəşəri,

multikultural dəyərlər ruhunda gənclərin formalaşmasıdır. Qafqazda baş verən çağırışlar - etnik münaqişələr, miqrasiya, informasiya müharibələri, ekoloji və sosial problemlər - tədris prosesinin məzmununa yeni yanaşmalar tələb edir.

Bu baxımdan məqsəd yalnız bilik ötürmək deyil, həm də regional, qlobal təhlükələri gənclərə anlatmaq, vətəndaş mövqeyini, milli təəssübkeşliyi, tolerantlıq, sülh və əməkdaşlıq mədəniyyətini formalaşdırmaq deməkdir.

Qeyd etmək lazımdır ki, Bakı Dövlət Universiteti Qafqaz xalqları tarixi kafedrasının magistratura səviyyəsində ixtisaslaşma kursunda tədris edilən "Qafqaz müasir çağırışlar və yeni təhdidlər şəraitində" fənni özündə aşağıda göstərilən mövzuları əks etdirir:

1. Kursun əsas məqsəd və vəzifələri, öyrənilmə səviyyəsi.
2. XX əsrin sonu - XXI əsrin əvvəllərində Qafqaz regionunda yeni güc mərkəzlərinin formalaşması və təhlükəsizlik arxitekturası.
3. XX əsrin sonu XXI əsrin əvvəllərində Azərbaycanın iqtisadi layihələrinin regional və beynəlxalq əhəmiyyəti.
4. Qafqazda geosiyasi rəqabət: regional dövlətlərin maraqlarının kəsişməsi.
5. Qərb dövlətlərinin Qafqazda ikili standartlar siyasətinin mahiyyəti.
6. Cənubi Qafqazda logistik layihələr: Şimal-Cənub (Rusiya-Cənubi Qafqaz- İran) və Orta Dəhliz Şərq-Qərb (Çin, Mərkəzi Asiya, Cənubi Qafqaz, Avropa) oxları.
7. Cənubi Qafqaz dövlətləri beynəlxalq münasibətlər sistemində.
8. Qərb ölkələri və Çinin Cənubi Qafqazda geosiyasi maraqları.
9. Qafqazın enerji təhlükəsizliyi beynəlxalq təhləkəsizliyin bir sistemi kimi.
10. Dünyada baş verən qloballaşma prosesləri və onların Qafqaza təsiri.
11. Müasir dövrdə Qafqazda təhdidlər: kibertəhlükəsizlik, dezinformasiya və terrorizm.
12. Yaşıl dünya naminə hərəkat müasir dövrün çağırışı kimi.
13. Zəngəzur dəhlizi və Cənubi Qafqazda geosiyasi maraqlar.
14. II Qarabağ müharibəsindən sonra Qafqazda yeni geosiyasi reallıqlar.
15. Azərbaycan Cənubi Qafqazda etibarlı və strateji tərəfdaş, sülhün və sabitliyin qarantı kimi.

Nəticə. Aparılan təhlillər göstərir ki, Qafqazda formalaşan yeni güc mərkəzləri, təhlükəsizlik modeli regional və qlobal sistemin dəyişməsini şərtləndirir. Regionun müasir siyasi, sosial-iqtisadi durumunu, gələcək prioritetlərini elmi əsaslarla öyrənilməsi, tədqiq edilməsi, qiymətləndirilməsi müasir tədqiqatların, o cümlədən tədris, elmi-pedaqoji sahənin prioritet istiqamətlərindəndir.

"Qafqaz müasir çağırışlar və yeni təhdidlər şəraitində" fənninin öyrənilməsi yalnız nəzəri biliklərin zənginləşdirilməsi deyil, həm də praktiki təhlükəsizlik siyasətinin formalaşdırılması, strateji düşüncə tərzinin inkişafı və müasir regional proseslərin dərindən anlaşılması baxımından mühüm rol oynayır. Bu fənn tələbələrə regiounun siyasi reallıqlarını, risklərini və perspektivlərini obyektiv qiymətləndirmə imkanı verərək, gələcəkdə analitik, diplomatik və idarəetmə sahələrində peşəkar fəaliyyət üçün zəruri elmi baza yaradır.

ƏDƏBİYYAT

1. Abbasov F. Azərbaycanın xarici siyasəti və regional təhlükəsizlik. Bakı, 2019.
2. Allahverdiyeva L.İ. Covid-19. Əsrin xəstəliyi. Bakı, Şərq-Qərb, 2023, 256 s.
3. Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda İlham Əliyevin çıxışı.- https://president.az/az/articles/view/70464 [09.12.2025].
4. Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda İlham Əliyevin çıxışı. - https://president.az/az/articles/view/70546 [09.12.2025].
5. BMT Baş Assambleyasının 80-ci sessiyasında İlham Əliyevin çıxışı. - https://president.az/az/articles/view/70214 [09.12.2025].
6. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 1997-2013. 46 cilddə.
7. Əliyev İ.H. İnkişaf – məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. Bakı, Azərnəşr, 2004-2025, 143 cilddə.
8. Əliyev İ.H. Cənubi Qafqazda geosiyasi maraqlar və təhlükəsizlik problemləri. Bakı, 2020.

9. Haqverdiyev M. Müasir dövrdə ümumavropa təhlükəsizliyi və Azərbaycan. Bakı, Elm və Təhsil, 2011, 232 s.
10. Həsənov A. Qafqaz regionunda geosiyasi proseslər və Azərbaycanın milli maraqları. Bakı, 2018.
11. Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, Letter-press, 2011, 440 s.
12. Həsənov Ə. Azərbaycanın geosiyasəti. Bakı, "Zərdabı LTD" MMC, 2015, 1056 s.
13. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan nəşriyyatı, 2005, 631 s.
14. Hüseynova İ.M. Dövlətçilik naminə. Bakı, Bakı Universiteti nəşriyyatı, 2001, 294 s.
15. Hüseynova İ.M. Müstəqilliyimizin təminatçisi. Bakı, "Təhsil", 2003, 504 s.
16. Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, "Təhsil", 2004, 472 s.
17. Hüseynova İ.M. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu, 2008, 672 s.
18. Hüseynova İ.M. İlham Əliyev və Zəfər tariximizin şanlı səhifələri. Bakı, Füyuzat, 2021, 224 s.
19. Leyla V. 1991-2008-ci illərdə Cənubi Qafqaz - Avropa İttifaqı əməkdaşlığı. Bakı, Füyuzat, 2025, 220 s.
20. Məmmədov M. Nəqliyyatın dinamik inkişaf strategiyası. I cild, Bakı, Çaşıoğlu, 2015, 228 s.
21. Məhərrəmov E. Cənubi Qafqazda münaqişələr və regional sabitlik. Bakı, 2021.
22. Nəsibov E. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqlar. Bakı, "Çıraq", 2006, 314 s.
23. Qasımlı M. Güney Kafkasya'daki Çatışmalara Rusya, Türkiye ve İran'ın Yaklaşımı / "Kafkasya'da Barış Arayışları" adlı uluslararası bilimsel sempozyumu materialları. Gori State Teaching University. Tbilisi, 2021, s.94-100.
24. Qələndərli S. İnsan alverinə qarşı mübarizənin beynəlxalq və milli-hüquqi problemləri. Bakı, "Nurlar" nəşriyyat-poliqrafiya, 2019, 352 s.
25. Qonaqov R. Xəzər hövzəsi və enerji təhlükəsizliyi. Bakı, Elm, 2018, 200 s.
26. Quliyev R. Postmünaqişə dövründə Qafqazda yeni çağırışlar və təhlükələr. Bakı, 2022.
27. Гусейнова И.М. Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру. Баку, Тахсил, 2005, 512 с.
28. Гусейнова И.М. История народов Кавказа. Баку, Elm və Təhsil, 2018, 1248 с.
29. Каландарли Н.Г. Права пациентов в Азербайджанском законодательстве. Баку, Elm və Təhsil, 2016, 376 с.
30. Galandarli N.H. To the Legal Support of the Solution of Bioethical Problems in the Republic of Azerbaijan. 2024 //Asian Social Science, Vol 9, No11; 2013. İSSN: 1911-2017, E-İSSN: 1911-2025. P.57-62.
31. İnformasiya təhlükəsizliyi və şəxsi həyatın toxunulmazlığı / [Elektron resurs]. - https://dim.gov.az/storage/iblock/5aa/5aa1da6cb782f1c2e19e8a901ad703a7.pdf [09.12.2025].

ИРАДА ГУСЕЙНОВА
Заведующая кафедрой истории народов Кавказа
Бакинского государственного университета,
доктор исторических наук, профессор

О ПРЕПОДАВАНИИ ПРЕДМЕТА «КАВКАЗ В УСЛОВИЯХ СОВРЕМЕННЫХ ВЫЗОВОВ И НОВЫХ УГРОЗ»

Кавказ издавна представляет собой стратегический регион, где пересекаются геополитические интересы крупных держав, энергетические и транспортные коридоры, а также этническое и религиозное многообразие. В статье на основе системного, историко-аналитического, сравнительного и геополитического подходов исследуются современные вызовы XXI века: региональные конфликты, геополитическое соперничество, энергетическая и экологическая безопасность, киберугрозы, информационные войны, торговля людьми и терроризм. Особое внимание уделяется последствиям Победы Азербайджана в 44-дневной Войне 2020 года и анти-

террористической операции 2023 года, восстановлению территориальной целостности страны, Шушинской декларации и парафированию мирного договора с Арменией, что стало основой формирования новой архитектуры безопасности в Южном Кавказе.

В исследовании показано, что обеспечение устойчивой безопасности на Кавказе невозможно только военными и политическими инструментами: биоэтика, экологическая безопасность, пограничный контроль, борьба с торговлей людьми, а также кибербезопасность становятся неотъемлемой частью региональной стабильности. В модели Азербайджана - мультикультурализм, сбалансированная внешняя политика и программа «Большое возвращение» - социально-экономическое развитие, толерантность и равенство прав рассматриваются как ключевые факторы предотвращения сепаратизма. В итоге делается вывод, что будущее Кавказа зависит от сотрудничества и взаимного доверия, многосторонних дипломатических платформ, а также от роли образования и науки в формировании аналитического мышления, национально-духовных ценностей и культуры мира у молодёжи.

Ключевые слова: Кавказский регион; геополитические интересы; региональная безопасность; конфликты; постконфликтный период; мультикультурализм.

IRADA HUSEYNOVA
Head of the Department of History of the Caucasian Peoples of Baku State University, Doctor of Historical Sciences, Professor

ON THE TEACHING OF THE SUBJECT "CAUCASUS IN THE CONDITIONS OF MODERN CHALLENGES AND NEW THREATS"

The Caucasus has historically been a strategic region where the geopolitical interests of major powers intersect, alongside vital energy and transport corridors and significant ethnic and religious diversity. This article, using a systemic, historical-analytical, comparative and geopolitical approach, examines the main challenges of the 21st century, including regional conflicts, geopolitical rivalry, energy and environmental security issues, cyber threats, information warfare, human trafficking and terrorism. Special emphasis is placed on the consequences of Azerbaijan's Victory in the 44-day Patriotic War of 2020 and the 2023 anti-terror operation, the restoration of the country's territorial integrity, the Shusha Declaration and the paraffing of the peace agreement with Armenia, which collectively constitute the foundation of a new security architecture in the South Caucasus.

The study demonstrates that sustainable security in the Caucasus cannot be achieved solely by military and political means; bioethics, environmental safety, border protection, combating human trafficking and cyber security have become integral components of regional stability. Azerbaijan's model - multiculturalism, balanced foreign policy and the "Great Return" programme - highlights socio-economic development, tolerance and equal rights as key pillars against separatism. Ultimately, the article concludes that the future of the Caucasus depends on cooperation and mutual trust, multilateral diplomatic mechanisms and the essential role of education and science in shaping analytical thinking, national and moral values and a culture of peace among the younger generation.

Keywords: Caucasus region, geopolitical interests, regional security, conflicts, post-conflict period, multiculturalism.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 dekabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Leyla Vaqif qızı, t.e.d. Anar İsgəndərov.